# Ölüm, ağ-qara qoç şəklində gətiriləcək

Əbu Səid Əl Xudridən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Ölüm, ağ-qara qoç şəklində gətiriləcək və mələk səslənəcək: " Ey Cənnət əhli!" və onlar başlarını qaldırıraq baxacaqlar, mələk deyəcək: "Bunu tanıyırsınızmı? Onlar - Bəli, bu ölümdür - deyəcəklər, hamı onu artıq dadmışdır. Sonra mələk səslənəcək: - "Ey cəhənnəm əhli"- və onlar başlarını qaldırıb baxacaqlar, sonra isə mələk onlara deyəcək: "Bunu tanıyırsınızmı?" Onlar - Bəli, bu ölümdür - deyəcəklər, hamı onu artıq dadmışdır. Sonra bu qoç kəsiləcək və mələk deyəcək: Ey cənnət əhli, artıq ölüm yox, əbədilik var. Ey cəhənnəm əhli, artıq ölüm yox, əbədilik var." Ardınca Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bu ayəni oxudu: "Sən onları işin bitmiş olacağı peşmançılıq günü ilə qorxut! İndi onlar hələ qəflətdədirlər" [Məryəm ,39] dünyada olanlar hələ qəflətdədirlər "və onlar iman gətirmirlər." [Məryəm ,39].

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, Qiyamət günü ölüm erkək ağ-qara rəngində olan qoç şəklində gətriləcək, Və " Ey Cənnət əhli!" -deyə çağrılırlar və onlar boyunlarını uzadıb, başlarını qaldırıb baxırlar. Və mələk onlara deyir: Bunu tanıyırsınızmı?! Onlar - Bəli, bu ölümdür - deyəcəklər, hamısı onu görüb dadmışdır. Sonra mələk: - "Ey cəhənnəm əhli"- deyə çağırır və onlar boyunlarını uzadıb, başlarını qaldırıb baxırlar və onlara deyir: "Bunu tanıyırsınızmı?!" Onlar - Bəli, bu ölümdür - deyəcəklər, hamısı onu görüb dadmışdır. Sonra bu qoç kəsilir və mələk deyir: Ey cənnət əhli, artıq ölüm yox, əbədilik var. Ey cəhənnəm əhli, artıq ölüm yox, əbədilik var. Bu, möminlərin nemətini, kafirlərin isə əzabını artırmaq üçündür. Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bu ayəni oxudu: "Sən onları işin bitmiş olacağı peşmançılıq günü ilə qorxut! İndi onlar hələ qəflətdədirlər və onlar iman gətirmirlər." [Məryəm ,39] Və Qiyamət günü cənnət əhli ilə cəhənnəm əhli bir-birindən ayrılacaq. Hər biri əbədi qalacaqları yerə daxil olacaq. Pis əməl sahibi xeyir əməllər etmədiyinə görə, səhlənkar davranan isə əməllərini artırmadığına görə peşman olacaq.

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee